# PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ: TARİXİLİK VƏ MÜASİRLİK



**Nuranə Rüstəmova,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının müəllimi*
*e-mail: rustamovanurana447@gmail.com*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3018*

**UOT:** 37
**Xülasə**. *Təhsil sahəsi dünyada gedən qlobal dəyişikliklərin – iqtisadi, mədəni, ictimai, insanların gündəlik fəaliyyətlərinin və texnologiyanın inkişafına adaptasiya və uyğunlaşma edən əsas sahələrdən biridir. Məqalədə Azərbaycan təhsil sisteminin dünya təhsil sistemi səviyyəsinə qaldırılması istiqamətində təhsil sahəsində görülən işlər, əldə olunan nailiyyətlərin qorunub saxlanılması, sistemləşdirilməsi və gələcək perspektivlər araşdırılır.*

*Tədqiqatda təhsilimizin tarixilik və müasirlik baxımından inkişafı təhlil olunaraq təhsilin qlobal çağırışlara uyğun formalaşması, təhsildə aparılan islahatlar, təlimin məzmununda gedən dəyişikliklər, yeni texnologiyaların yaradılması və onların beynəlxalq təhsil təcrübəsində tətbiqinin nəticələri izah edilir.*

***Açar sözlər:*** *müasir texnologiyalar, innovasiya, texniki vəsaitlər, məktəblər, təhsil, effektivlik.*
***Keywords:*** *modern technologies, innovation, technical resources, schools, education, efficiency.*
***Ключевые слова:*** *современные технологии, инновации, технические средства, школы, образование, эффективность.*

Təlim texnologiyaları XX əsrin 50-ci illərində meydana gəlmişdir. “Təlim texnologiyaları” adı ilə təhsil dünyasına daxil olunmuş bu anlayış, ilk dəfə olaraq inkişaf etmiş ölkələrin təhsil sistemində texnologiyanın istifadəsini əsaslandırmaq məqsədilə istifadə olunurdu. Sonra bu termin daha da təkmilləşərək tədris prosesində səmərəliliyin yüksəldilməsinə xidmət edən üsullar, vasitələr və priyomlar kimi nəzərdə tutulurdu.

XXI əsr elmi-texniki inkişaf dövründə tətbiq olunmuş yeniliklər, aparılmış islahatlar, həyata keçirilmiş layihələr yeni nəslin inkişafında xüsusi rol oynadı. Təhsildə keyfiyyətin təmin olunması səmərəliliyin yüksəldilməsi, öyrənənlərə verilən təlimin məzmunu ilə yanaşı, yeni pedaqoji texnologiyaların, innovasiyaların tətbiqi və fəal təlim metodlarının tədris üsulundan da asılıdır. Müasir təlim texnologiyalarının dərsdə tətbiqi məsələlərinin pedaqoji aspektdən öyrənilib ümumiləşdirilməsi və qabaqcıl təcrübənin yayılması problemi bu gün öz aktuallığını daha da artırır.

Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün müasir texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması mühüm əhəmiyyət daşıyır. Müasir innovativ tədris metodlarının təcrübəyə gətirilməsi, İKT-dən təhsildə

daha geniş istifadə müasir dərsi, çağdaş müəllimin fəaliyyətini şərtləndirən əsas amillərdəndir. İnnovativ təlimin forma və üsullarını öz işində tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsinə nail olan səriştəli müəllimlərin hazırlanması və innovativ idarəetmənin tətbiqi məsələləri də hazırda mühüm əhəmiyyət kəsb edir. Təhsil sisteminin inkişaf tendensiyası və pedaqoji innovasiyalar sahəsində məktəblərin, novator müəllimlərin iş üsullarına dair toplanılmış faydalı təcrübələri, pedaqoji-psixoloji tədqiqatların nəticələri daima sistemləşməni, ümumiləşməni və təlim-tərbiyə prosesinin məzmununun yeniləşdirilməsini tələb edir. Bu problemlərin həlli təhsil sferasına, pedaqoji prosesə "texnologiya" anlayışının elmi əsaslarla gətirilməsini vacib bir problem kimi qarşıya qoyur və bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır. N.Z.Çələbiyev "texnologiya" anlayışının mahiyyətini belə açıqlayır: "texnologiya" yunanca "techne" sənət, peşə, "loqos" elm deməkdir və istehsalat proseslərinin, məsə-lən, metalların texnologiyası, emal texnologiyası və s. haqqında iş üsulları və prosesləri haqqında biliklərin məcmusunu əks etdirir. Bu anlayış texnikanın inkişafı ilə bağlı uğurların fonunda meydana gəlmişdir. Müasir pedaqogikada "pedaqoji texnologiya" anlayışının onlarla tərifi olsa da, əslində o, mahiyyət etibarilə "təlim-tərbiyə proseslərinin layihələşdirilməsinin sistemli metodu" kimi səciyyələndirilir. Bu anlayış prosessual kateqoriya kimi bilavasitə tədris və tərbiyə prosesi ilə müəllim və təhsilalanların fəaliyyəti, onun strukturu, vasitələri, metodları və s. ilə bağlıdır.

Azərbaycan təhsilində müasir texnologiyaların istifadəsinin genişləndirilməsi məsələsi bu sahədə həyata keçirilən islahatların mərkəzində dayanır. Bu baxımdan Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycanın Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi və 2014–2016-cı illəri əhatə edən "Azərbaycan Təhsil Nazirliyi üçün Təhsil İnformasiya Sisteminin yaradılması və müəllimlərin səriştəsinin artırılması" layihəsini də qeyd etmək lazımdır. Layihənin məqsədi müəllimlərin təlimi üçün onlayn "E-tədris" sisteminin yaradılması ilə müəllimlərin potensialının və təhsilin keyfiyyətinin artırılması, rəsmi sənədlərin idarə olunması strukturunun kompüterləşdirilməsi ilə idarəçiliyin səmərəliliyinin və vətəndaşların nazirliyin administrasiyasından məmnunluq səviyyəsinin yüksəldilməsi, eyni zamanda Koreya texnologiyasının "nou-hau"su və inkişaf təcrübəsinin bölüşdürülməsi ilə Azərbaycan müəllimləri və dövlət rəsmilərinin insan qaynaqlarına töhfə verməkdir. Onu da qeyd edim ki, Prezident İlham Əliyevin də çıxışlarından birində söylədiyi kimi, "Təhsil sahəsində aparılan islahatlar Azərbaycanın uzunmüddətli inkişafına hesablanıb. "Bizim üstünlüyümüz ondan ibarətdir ki, təbii sərvətlərimiz də var və biz təbii sərvətlərin işlənilməsindən əldə edilmiş gəlirləri insan kapitalına, o cümlədən, təhsil sahəsində aparılan islahatlara yönəldirik. Ancaq biz elə etməliyik ki, gələcəkdə ölkəmizin uğurlu və uzunmüddətli inkişafını elm, biliklər, texnologiyalar müəyyən etsin".

Azərbaycan müstəqillik qazandıqdan sonra milli quruculuq işlərinə başlanılmış, ölkəmizin hərtərəfli inkişafına nail olmaq məqsədi ilə əsaslı addımlar atılmışdır. Ölkənin iqtisadi, siyasi və sosial inkişafına nail olmaq, ölkəni mədəni cəhətdən tərəqqi etdirmək üçün milli təhsil sisteminin qurulması istiqamətində müəyyən addımlar atılmışdır. İlk növbədə, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu imzalandı. Qanuna əsasən təhsilin məzmununun yenidən qurulması, proqram və dərsliklərin yenidən hazırlanması, normativ-hüquqi bazanın müəyyənləşdirilməsi istiqamətində bir sıra işlər görüldü.

Təhsil sahəsində inkişafa nail olmaq üçün, ilk növbədə, təlim-tərbiyə prosesinin məzmunu yeniləşdirilməli, yenilikçi müəllimlərin qabaqcıl təcrübələrindən faydalanmalı, təhsil sahəsində əldə olunmuş tədqiqat nəticələri müzakirə edilməli, sistemləşdirilməli və ümumiləşdirilməlidir. Bu məsələlərin ən üst səviyyədə həlli üçün "texnologiya" anlayışı elmə gətirildi. Əslən yunan mənşəli söz olan "texnologiya" sözünün mənası "sənətə sistemli yanaşma" deməkdir. Texnologiya, ilk növbədə, fəaliyyət sistemidir. Onun tətbiqi insanda tələb olunan keyfiyyətlərin yaranmasına xidmət etməlidir. Təhsildə texnoloji yanaşma dedikdə, təlim prosesinin demokratik prinsiplərin tətbiqinin nəzərə alınması ilə təşkili nəzərdə tutulur. Eyni zamanda təlim texnologi-

yaları qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün istifadə olunmuş fəaliyyətlər sistemidir.

Texnoloji yanaşma şaquli (vertikal) və üfüqi (horizontal) olmaqla iki tərkib hissədən ibarətdir. *Şaquli yanaşma* özündə *meta, makro, mezo* və *mikrotexnologiyaları* birləşdirir. ***Metatexnologiyalar*** ümumi didaktik və tərbiyə texnologiyalarıdır. Bu texnologiyalara inkişafetdirici təlim texnologiyaları və tərbiyə işinin təşkilini həyata keçirən texnologiyalar aiddir. ***Makrotexnologiyalar*** fənnin tədris forması ilə bağlı texnologiyaları əhatə edir. Bu texnologiyalar bütün təhsil sistemini əhatə edir. ***Mezotexnologiyalara*** bəzən lokal-modul texnologiyalar da deyilir. Bu texnologiyalar təlim-tərbiyə ilə bağlı bir çox texnologiyaları özündə birləşdirir. Texnologiyaların istifadəsi müəyyən təhsil səviyyəsini və ya təhsil pilləsini əhatə edir. Tədris prosesində, təlim materialının mənimsədilməsi zamanı, nəzarəti həyata keçirən zaman bu tip texnologiyalardan isifadə olunur. Son olaraq ***mikrotexnologiyalar*** isə qarşılıqlı səmərəli ünsiyyətin, əməkdaşlıq proseslərinin qurulması və idarə edilməsi zamanı istifadə edilən texnologiyalar qrupudur. Bu texnologiyalar subyekt-subyekt münasibətlərinin tənzimlənməsində rol oynayır. Mikrotexnologiyaların tətbiq dairəsi daha məhduddur, bir dərsin və ya məşğələnin icrası zamanı tətbiq oluna bilər.

***Üfüqi yanaşma*** tərkib hissələrinə isə *elmi-nəzəri, formal-təsviri, prosessual-aktiv xarakterli texnologiyalar* aiddir. ***Elmi-nəzəri texnologiyalar*** pedaqoji prosesin həllinə istiqamətlənmiş texnologiyalardır. Əvvəlcədən istifadəsi müəyyənləşdirilmiş metod, üsul və vasitələri əhatə edən texnologiyalara ***formal-təsviri texnologiyalar*** deyilir. ***Prosesssual-aktiv texnologiyalar*** isə əldə olunmuş nəticələrin təhlili, gələcək fəaliyyətin planlaşdırılması məqsədi ilə həyata keçirilən texnologiyaları əhatə edir.

Təlim texnologiyalarının səmərəli tətbiqi üçün işin tətbiqi yollarını bilməklə yanaşı, dəstəkləyici mühitin olması, təlimin lazımi avadanlıqlarla təchizatı vacib amildir. Pedaqoji texnologiyalardan səmərəli istifadə yollarının müəyyən olunması üçün, ilk növbədə, inkişaf etmiş dövlətlərin bu istiqamətdəki təcrübələrini nəzərdən keçirtmək lazımdır. Təlim texnologiyalarının tətbiqində müasir avadanlıqlardan istifadə ilə yanaşı, müəllimlərin bu işin icrası ilə bağlı dərin biliyə malik olması vacib şərtdir. Təhsil müəssisələrinin müasir avadanlıqlarla təchizatı, müəllimlərin təlimə cəlb olunması təhsilə yüksək miqdarda vəsaitin ayrılmasını tələb edir. Məlum məsələdir ki, bütün təhsil müəsissələrini müasir texnoloji avadanlıqlarla təmin etmək çətin məsələdir. Həmçinin təhsilin keyfiyyətinin yüksəldilməsi və inkişaf etmiş dövlətlərin təhsil səviyyəsinə çatdırılması üçün həm maddi, həm mənəvi güc tələb etdiyindən təhsilə bu qədər vəsaitin ayrılması, texnologiyaların inkişafına bu qədər səy göstərilməsi əsassız hesab edilir. Çünki aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, təlimin keyfiyyətinin yüksəldilməsi sadəcə müasir avadanlıqlardan asılı deyildir.

Müasir avadanlıqlardan istifadə təlimdə canlanma yaratsa da, uzunmüddətli nailiyyət üçün əsas şərt təlim texnologiyalarından necə istifadə edilməsidir. Qeyd etdiyimiz kimi, təhsilin qarşıya qoyulmuş məqsədlərinə nail olunmasında təlim texnologiyalarının rolu əvəzsizdir. Təlim texnologiyalarının inkişafından istifadə təhsilin inkişafında xüsusi rol oynayır. Təlim texnologiyalarının inkişafına nail olmaq üçün, ilk növbədə, onun mahiyyəti anlaşılmalı, onun inkişaf tendensiyaları müəyyənləşdirilməlidir. Təlim texnologiyaları bir çox aspektdən dəyərləndirilir. Belə ki, o təlimin məqsədi nəzərdən keçirilən müxtəlif fənlərin tədris metodikasını müəyyənləşdirmək, beynəlxalq səviyyədə münasibətlər qurmaq, yaradıcı təfəkkürü və insanları bir şəxsiyyət kimi formalaşdırmağı nəzərə almaqdır. Təhsilin məzmunu fonunda dəyərləndirilərkən, təlim texnologiyaları tədqiqatçılıq bacarıqlarının formalaşmasına, əməkdaşlıq münasibətlərinin inkişafın və problem həlletmə bacarıqlarının yaranmasına xidmət edir. Onu da qeyd edək ki, təlim texnologiyaları təlim metodları kimi də başa düşülür. Təlim texnologiyaları təlimin daha səmərəli təşkili, təlim materiallarının az vaxt ərzində mənimsənilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunan üsul və vasitələr toplusudur.

Pedaqoji texnologiyalar ilə təlim sistemində istifadə olunan texnoloji avadanlıqlar çox vaxt qarışdırılır. Pedaqoji texnologiyalar təhsil qarşısında duran məqsədlərə çatmaq üçün istifadə

olunan priyomlar, metodlar, üsul və vasitələr toplusudur. Təlim prosesində istifadə olunan texnologiyalara isə müasir texnoloji qurğular, kompüterlər, planşetlər, proyektorlar, ağıllı lövhələr aiddir. "Pedaqoji texnologiya" anlayışının yaranma tarixi isə ötən əsrin 60-cı illərinə təsadüf edir. Həmin illərdə təlimdə texnoloji avadanlıqlardan istifadənin genişləndirilməsi istiqamətində qərar qəbul edilmiş, nəticə olaraq "təlim texnologiyaları" anlayışı istifadə olunmağa başlanmışdır. Pedaqoji texnologiyanın bir-biri ilə qarşılıqlı əlaqəsi olan üç səviyyəsi ayrıca araşdırılmalı, məzmunu və məqsədi aydınlaşdırılmalıdır. Tətbiq formalarına görə texnologiyalar: ümumi pedaqoji texnologiyalar, xüsusi metodiki pedaqoji texnologiyalar, lokal pedaqoji texnologiyalara ayrılır:

**1. *Ümumi pedaqoji texnologiya*** məktəblərdə tədris vahidinin müəyyən qisminin proqnozlaşdırılmasının elmi nöqteyi-nəzərdən əsaslandırılmasıdır.

**2. *Xüsusi metodiki pedaqoji texnologiyalar*** hər hansı bir fənn üzrə və ya xüsusi təmayüllü siniflər üzrə təlimin layihələndirilməsinin elmi əsaslarının izah edir.

**3. *Lokal pedaqoji texnologiyalar*** isə bir dərsin və ya təlim prosesinin müəyyən bir hissəsində isifadə olunan texnologiyalardır.

XX əsrdə təhsildə baş verən tərəqqi nəticəsində təlim texnologiyalarında da əsaslı dəyişikliklər baş verdi. Ənənəvi təlim texnologiyaları öz yerini müasir təlim texnologiyaları ilə əvəz etdi. Onlardan biri də təhsilalanı təlim prosesinin əsas subyekti kimi dəyərləndirən şəxsiyyətə yönəlmiş təlim texnologiyalarıdır.

İnsanın cəmiyyətdə fəal mövqe tutması üçün, ilk növbədə, ona şəxsiyyət kimi yanaşılması vacib məqamdır. Şəxsiyyətə yönəlmiş təlim texnologiyalarının əsas üstünlüyü təhsilalanı təlim prosesinin əsas obyekti kimi diqqət mərkəzində saxlamasıdır. Texnologiyaların istifadəsi zamanı təhsilalanların maraq və tələbatları, bacarıq və qabiliyyətləri, onların bilik səviyyəsi nəzərə alınır. Təhsilalan təlimdə əsas aparıcı qüvvə olur, təhsilverən təhsilalana qarşı obyekt kimi deyil, subyekt kimi yanaşır. Müəllim təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alır və bu təlim texnologiyalarının tətbiqi zamanı onun üçün əlverişli və rahat şəraitin yaradılması əsas şərtdir.

Təlim texnologiyaları didaktik sistemlə sıx bağlı olan anlayışdır. Pedaqoji texnologiyalar təhsilalanın təlim məqsədlərinə asanlıqla çata bilmələri üçün texnologiya və üsullar toplusudur. Eyni zamanda pedaqoji texnologiyalar novator müəllimlərin yenilikçi ideyalarına əsaslandığı kimi, həmçinin keçmiş pedaqoji təcrübələri nəzərə alan sistemdir. Texnologiyalar texniki vasitələrlə təlim metodlarının vəhdətindən yaranan sistemdir. Pedaqoji sistemdə yerindən və məqsədindən asılı olaraq təlim texnologiyalarının müxtəlif növlərindən istifadə olunur. Bunlara aiddir:

– *təbii təlim texnologiyası;*
– *modul-reytinq texnologiyası;*
– *inteqrativ təlim texnologiyası;*
– *parasentrik təlim texnologiyası;*
– *biliklərin tam mənimsənilməsi texnologiyası;*
– *fərdi təlim texnologiyası;*
– *kooperativ təlim texnologiyası;*
– *təlimin nəzarət-korrektdə texnologiyası.*

Təlim texnologiyaları müxtəlif istiqamətlidir. Ümumi mənada götürüldükdə isə pedaqoji texnologiyalar aşağıdakı kimi də təsnif oluna bilər:

***Təlim texnologiyası*** təhsilalanlarda bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsinə yönəlmiş üsul və vasitələr toplusudur. Təlim təhsilalanın təhsilləndirilmə formasıdır. Bu texnologiyalar təhsilalanlarda elmi biliklərin mənimsədilməsinə, təhsilalanların dünyagörüşünün formalaşdırılmasına istiqamətlənmiş texnologiyalardır.

***Tərbiyə texnologiyası*** təhsilalanlarda əxlaqi cəhətdən kamilləşdirmə məqsədi ilə tətbiq edilən texnologiyalardır. O təhsilalanlarda səmərəli ünsiyyət bacarıqları və onların bir şəxsiyyət kimi formalaşmasına istiqamətlənmiş texnologiyadır.

***İnkişaf texnologiyası*** hərtərəfli psixi inkişafa yönəlmiş metodlardır. Bu, təhsilalanları həm tərbiyəvi cəhətdən, həm də təhsilləndirmək cəhətdən inkişaf etdirmək məqsədi ilə tətbiq olunan texnologiyalardır.

***Diaqnostika texnologiyası*** monitorinq və qiymətləndirməni həyata keçirtmək məqsədi ilə təşkil edilir. Bu texnologiyalardan istifadə zamanı məktəb müəllimləri ilə yanaşı, təhsil müəssisəsinin psixoloq və pedaqoqunun da iştirakı va-

cibdir. Diaqnostikanın əhəmiyyəti mövcud vəziyyətin qiymətləndirilməsini aparmaqla, gələcək fəaliyyətin proqnozlaşdırılmasını həyata keçirtməkdir. Diaqnostika tətbiq olunmuş metodların üstünlükləri və çatışmazlıqları haqqında məlumat verən texnologiyalardır.

İcraolunma formalarına görə texnologiyalar *sinif-dərs, alternativ, akademik, klub, fərdi, qrup və kollektiv təlim metodlarına* bölünür. İdarəolunma növünə görə isə texnologiyalar üç qrupa bölünür. *Birinci qrup* ənənəvi texnologiyalardır. Bu texnologiyalarda dərsin əsas forması müəllimin nitqi əsasında qurulur. Mühazirələr əsas aparıcı təlim formasıdır. Təhsilalanların elmi bilikləri mənimsədiyi yeganə mənbə dərs kitabları və müəllimin izahıdır. *İkinci qrup* texnologiya növü təhsilalanların fərdi xüsusiyyətlərinə, bacarıq və qabiliyyətlərinə görə qruplarda toplanılmasına əsaslanır. Belə qruplar yalnız istedadlı təhsilalanlardan deyil, eyni zamanda çətin tərbiyə olunan təhsilalanlardan da təşkil oluna bilər. *Üçüncü qrup* texnologiya isə müasirliyə daha yaxın olan təhsil üsuludur. Bu üsul texnologiyaların bəxş etdiyi üstünlüklərdən təhsil sistemində istifadə olunaraq onlardan faydalanmağa əsaslanır.

Təhsilalanlara münasibət formasına görə texnologiyaların müxtəlif növləri vardır. *Avtoritar yanaşma* tərzində təhsilalana obyekt kimi yanaşılır. Onların təşəbbüskarlığının, yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi üçün əlverişli şəraitin olmaması bu yanaşma formasının əsas xüsusiyyətidir.

*Əməkdaşlıq* münasibətləri təhsilalanların inkişafında xüsusi əhəmiyyət kəsb edən metodlardan biridir. Bu metodun əsas məqsədi birgə öyrənməni təmin etməkdir. Əməkdaşlıq münasibətləri demokratiya, bərabərlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Təhsilalanların əməkdaşlıq münasibətlərini təzahür etdirə biləcək təlim formalarına cütlərlə iş, kiçik və böyük qruplarla iş formalarını göstərmək olar.

Yeni təlim texnologiyalarının kor-koranə tətbiqi təlim sisteminə heç bir səmərə vermir. Texnologiyaların seçimi zamanı fənn, mövzu, təhsilalanın bilik səviyyəsi nəzərə alınmalıdır. Eyni zamanda bir dərs müddəti ərzində birdən artıq təlim texnologiyalarından istifadə edilə bilər. Hazırda müasir təlim sistemində bir sıra təlim texnolgiyaları geniş istifadə olunur. Ümumi halda texnologiyaları qruplaşdırsaq, onlara belə bir təsnifat verə bilərik:

***“Beyin həmləsi” metodları:*** əqli hücum, BİBÖ, auksion, klaster, suallar, anlayışların çıxarılışı, söz assosiasiyaları, insert.

***Müzakirə metodları:*** müzakirə, diskussiya, debatlar, müzakirə xəritələri, “Sokrat” üsulu, akvarium.

***Rollu oyun metodları:*** rollu oyun, səhnələşdirmə, modelləşdirmə, işgüzar oyunlar.

***Prezentasiya metodları:*** təqdimatlar, esse.

***Tədqiqat metodları:*** problemin həlli, kublaşdırma, konkret hadisənin araşdırılması və ya praktikum, Venn diaqramı, layihələrin hazırlanması, sorğu vərəqləri və müsahibələr, qərarlar ağacı, ideyalar xalısı, refleksiya.

***Təşkilati metodlar:*** ziqzaq, karusel.

Təlim texnologiyalarının əsas xüsusiyyətlərindən biri onların hər yaş qrupu üçün eyni dərəcədə səmərəli olmamasıdır. Yuxarıdakı qruplaşmadan nümunə gətirsək, görərik ki, “rollu oyunlar” metodu kiçikyaşlı məktəbli uşaqların təlimə cəlb edilməsində daha təsirli vasitədir. “Beyin həmləsi” və “müzakirə” metodlarının daha çox təsirli olduğu yaş qrupları isə yeniyetməlik dövrüdür. Bu göstəricilərlə bərabər təlim texnologiyalarının tətbiqində müəllimlər də xüsusi rol oynayır. Belə ki, innovator müəllim öz pedaqoji təcrübəsinə əsaslanaraq, təlim texnologiyalarının tətbiqi zamanı seçilmiş texnologiyanı yaş xüsusiyyətlərinə uyğunlaşdırmağı bacarmalıdır. Pedaqoji ustalığa malik müəllim yeri gəldikdə məzmunu asanlaşdırmalı, yeri gəldikdə mürəkkəbləşdirməyi bacarmalıdır.

**Nəticə.** Pedaqoji texnologiyalardan səmərəli istifadə təlim prosesinin keyfiyyətinin yüksəldilməsinə, öyrənənlərin fəallığının və müstəqil düşünmə bacarıqlarının inkişafına mühüm təsir göstərir. Müasir təhsil mühitində pedqoji texnologiyaların məqsədyönlü tətbiqi müəllim və öyrənən arasında qarşılıqlı əməkdaşlığı gücləndirərək təhsilin nəticəyönümlü təşkilinə imkan yaradır.

## İstifadə edilmiş ədəbiyyat

1. Abbasov A. Pedaqogika. Bakı, “Mütərcim” nəşriyyatı, 2013, 360 s.

2. Abdullayev A., Abdullayeva S. İbtidai təhsilin pedaqogikası (dərs vəsaiti). Bakı, "Elm və təhsil" nəşriyyatı, 2016.

3. Azərbaycan Respublikasında Ümumi təhsilin Konsepsiyası (Milli Kurikilum). 2006.

4. Aranlı M., Yusifova C. Kurikulum. Bakı, SkyG, 2017, 396 s.

5. Asadpour K. Təlimin səmərəsinin yüksəldilməsində müasir pedaqoji texnologiyalardan istifadənin əhəmiyyəti (Ped.üz.fəl.dok.dis.). Bakı, 2012, 154 s.

6. Cahangirova T. Müasir pedaqoji texnologiyalardan istifadə qaydaları. "Məktəbəqədər və ibtidai təhsil" jurnalı, Bakı, 2014, №2 (207), s.8-12.

7. Cəbrayılova R. Təlim-tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan istifadənin əhəmiyyəti (magistr dissertasiyası). Bakı, 2016, 80 s.

8. Eminov M. Qloballaşan dünya və müasir pedaqoji texnologiyalar. "Təhsil problemləri" qəzeti, 16 iyun, 2014.

9. Əhmədov H., Zeynalova N. Pedaqogika (dərslik). Bakı, "Elm və təhsil" nəşriyyatı, 2016, 456 s.

**N.Rustamova**

## The use of pedagogical technologies: historicity and modernity

**Abstract**

The field of education is one of the main areas that adapts and adapts to the global changes taking place in the world-economic, cultural, social, daily activities of people and the development of technology. The article discusses the work done in the field of education to raise the Azerbaijani education system to the level of the world education system, the preservation, systematization of the achieved achievements and future activities. The study explains the development of our education in terms of historical and modernity, the formation of education in accordance with global challenges, the reforms carried out in education, changes in the content of training, the creation of new technologies and the results of their application in international educational practice.

**Н.Рустамова**

## Использование педагогических технологий: историчность и современность

**Аннотация**

Сфера образования является одной из главных областей, адаптирующихся и приспосабливающихся к глобальным изменениям, происходящим в мире-экономическим, культурным, социальным, повседневной жизни людей и развитию технологий. В статье рассматривается работа, проделанная в сфере образования для повышения уровня азербайджанской системы образования до мирового уровня, сохранение и систематизация достигнутых результатов, а также планы на будущее. В исследовании также анализируется развитие нашего образования в историческом и современном контексте, формирование образования в соответствии с глобальными вызовами, реформы, проведенные в сфере образования, изменения в содержании обучения, создание новых технологий и результаты их применения в международной образовательной практике.